# Təhsil Şurası Ukraynada təcrübə mübadiləsi aparıb



**Azərbaycan Təhsil Şurası fəaliyyət planına uyğun olaraq martın 23-25-də Ukraynanın Lvov şəhərində "Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi" mövzusunda beynəlxalq elmi-təcrübi konfrans keçirdi. Konfrans Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsi ilə birgə təşkil olunmuşdu. Konfransda 28 nəfərlik Azərbaycan nümayəndə heyəti, o cümlədən Azərbaycan Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev, Təhsil Şurası İdarə heyətinin üzvləri, "Təhsil və zaman" qəzetinin redaktoru Böyükağa Mikayıllı, Bakı şəhər 286 nömrəli tam orta məktəbin direktoru Samir Mehdizadə, Bakı şəhərinin və respublikamızın ayrı-ayrı bölgələrindən olan müəllimlər, təhsil işçiləri, Ukrayna tərəfindən isə Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsinin şöbə müdiri Svetlana Knışk, Lvov Vilayət Diplomdansonrakı Pedaqoji Təhsil İnstitutunun direktoru, pedaqoji elmlər namizədi Roman Şiyan, eləcə də Lvov Elm və Təhsil Departamentinin əməkdaşları, məktəb direktorları və müəllimlər iştirak edirdilər.**

Azərbaycan, Polşa və Ukraynanın Dövlət himnlərinin səsləndirilməsi ilə öz işinə başlayan konfransı giriş sözü ilə Lvov Vilayət Elm və Təhsil İdarəsinin şöbə müdiri Svetlana Knışk açaraq idarənin rəisi Svetlana Nebojukun salamlarını iştirakçılara çatdırdı. Söylədi ki, Azərbaycan Təhsil Şurasının təşəbbüsü ilə keçirilən bu elmi-təcrübi konfrans müharibə şəraitində yaşayan Ukrayna xalqına, təhsil ictimaiyyətinə böyük dəstək kimi dəyərləndirilə bilər. Svetlana Knışk vurğuladı ki, bu gün Ukrayna təhsilində islahatların aparıldığı bir dövrdür. Avropanın mütərəqqi təhsil ənənələri öyrənilir, onlardan milli-mənəvi dəyərlər kontekstində istifadə yolları araşdırılır. Bu gün Ukraynada təhsilin xarici əlaqələri də inkişaf etməkdədir. Lvov məktəbləri də bu baxımdan istisna deyillər. Qeyd olundu ki, Lvov məktəblərinin əməkdaşlıq dairəsi əsasən Polşanın, eləcə də Avropanın digər ölkələrinin təhsil ocaqları çərçivəsindədir. Onlar Avropa təhsilinin qabaqcıl ənənələrindən bəhrələnir, onun mütərəqqi cəhətlərini öyrənirlər.

Elmi-təcrübi konfransda Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayev də giriş sözü ilə çıxış etdi. Ə.Ağayev vurğuladı ki, Azərbaycan və Ukrayna dövlətləri arasında əlaqələr hələ Sovetlər dönəmindən mövcud olmuş, iki qardaş ölkə daim bir-birinə dayaq durmuşdur. Ölkələrimiz arasında elm və təhsil əlaqələri, şübhəsiz ki, elmimizin, təhsilimizin də inkişafına təkan vermişdir. Görkəmli ukraynalı pedaqoq Anton Semyonoviç Makarenkonun elmi-pedaqoji irsi Azərbaycanda geniş şəkildə araşdırılmış, böyük alimin elmi irsinə monoqrafiyalar, elmi əsərlər həsr olunmuşdur. Azərbaycanda A.S.Makarenkonun adını daşıyan təhsil ocağı fəaliyyət göstərir. Ə.Ağayev özünün də Makarenko irsinə müraciət etdiyini, böyük alimin əsərlərini kitab halında çap etdirdiyini diqqətə çatdırdı. Natiq onu da qeyd etdi ki, Azərbaycanda Ukraynanın digər böyük pedaqoqu V.Suxomlinski irsinə də daim maraq mövcud olub. Təcrübə mübadiləsi, şübhə yoxdur ki, müəllimlərin dünyagörüşünün artmasına, dünyada gedən yeniliklərin öyrənilməsinə təkan verən mühüm amildir, deyən Ə.Ağayev gələcəkdə Azərbaycan müəllimlərinin Avropanın təhsil ocaqları ilə əlaqə yarada biləcəklərinə, tanışlıq imkanlarının qurulacağına inandığını söylədi.

Professor Əjdər Ağayev Azərbaycan Prezidenti cənab İlham Əliyevin Azərbaycanda təhsilin inkişafına yönəlmiş fundamental xarakterli işlərindən bəhs etdi. Təhsil sahəsinin inkişafı üzrə Dövlət Strategiyasının qəbul edilməsi, strategiyanın qarşıya qoyduğu vəzifələrin uğurla həyata keçirilməsi, bunun nəticəsi olaraq əldə edilən nailiyyətlər Azərbaycan təhsilinin müasir tələblər səviyyəsində inkişafından soraq verməkdədir. Əjdər Ağayev Azərbaycanda məktəb tikintisi, məktəblərin əsaslı təmiri, informasiya-kommunikasiya texnologiyaları ilə təminatı, müasir təlim texnologiyalarının tədrisə tətbiqi, yeni tipli təhsil ocaqlarının yaradılması, dünya təhsil təcrübəsinin öyrənilməsi, dərsliklərin elektronlaşdırılması və digər sahələrdə görülmüş əsaslı işlərdən bəhs etdi.

Sonra məruzələrə başlanıldı. Bakı şəhərindəki 286 nömrəli tam orta məktəbin direktoru Samir Mehdizadə "Azərbaycanda pedaqoji kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi təcrübəsindən", Lvov Vilayət Diplomdansonrakı Pedaqoji Təhsil İnstitutunun direktoru Roman Şiyan "Ukraynada müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi təcrübəsindən", Bakı şəhərindəki 162 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Svetlana Nəcəfova "Azərbaycanda xarici dillərin tədrisi təcrübəsindən" mövzusunda məruzə etdilər.

Konfransda çıxış edən polşalı məktəb direktoru öz həmkarı ilə birlikdə Ukrayna ilə Polşa arasında uzun illər əvvəl yaradılmış təhsil əlaqələrindən, bu əlaqələrin hər iki ölkə üçün faydasından danışdılar, Azərbaycanla da qurulacaq əlaqələrdən məmnun olduğunu dilə gətirdilər. Ümidvar olduqlarını bildirdilər ki, qarşılıqlı əlaqələr ölkələrin təhsil təcrübəsinin zənginləşməsinə təkan verəcəkdir.

## Azərbaycan və Lvov məktəbləri qardaşlaşdı...

Konfransın maraqlı və əhəmiyyətli məqamlarından biri də Azərbaycanın və Lvovun məktəbləri arasında əməkdaşlıq müqaviləsinin imzalanması oldu. Martın 23-də Azərbaycanın 3 məktəbi ilə Lvovun 5 məktəbi qardaşlaşdı. Bakı şəhərindəki 286 nömrəli tam orta məktəblə Lvov şəhərindəki 69 nömrəli və Striy şəhər 10 nömrəli, Baki şəhərindəki 162 nömrəli tam orta məktəblə Lvov şəhər 82 nömrəli, Bakı şəhərindəki 164 nömrəli tam orta məktəblə Turku şəhər orta məktəbi və Lvov şəhər 21 nömrəli orta məktəblə, Kürdəmir Rayon Təhsil Şöbəsi ilə Lvov Vilayət Morşin Şəhər Təhsil Şöbəsi arasında əməkdaşlıq memorandumu imzalandı.

Martın 23-də elmi-təcrübi konfransın ikinci hissəsi Lvov Dövlət Departamenti Elm və Təhsil İdarəsinin akt zalında "dəyirmi masa" ətrafında davam etdi. Öncə Azərbaycan Təhsil Şurasının sədri ilə Lvov Dövlət Departamenti Elm və Təhsil İdarəsinin rəisi xanım Svetlana Nebojuk arasında görüş oldu. Görüşdə professor Əjdər Ağayev xanım Svetlana Nebojuka Azərbaycan və Ukrayna xalqları arasında təhsil əlaqələrinin genişləndirilməsi sahəsində xidmətlərinə görə Təhsil Şurasının fəxri fərmanını təqdim etdi. Sonra çıxışlar oldu. Çıxışlarda təhsildə innovasiyalar, valideyn-məktəb əlaqələri, beynəlxalq təhsil layihələrində iştirak, Lvov məktəblərində təlim-tərbiyə işinin planlaşdırılmasının xüsusiyyətləri və monitorinqi, müəllimlərin peşəkar inkişafının təşkili, müəllim və şagird müsabiqələrinin keçirilməsi, tədris prosesində Mariya Montessori metodunun tətbiqi və onun əhəmiyyəti, sinif rəhbərinin işinin təşkili, Azərbaycanda müəllim və direktorların işə qəbulu, sinifdənxaric və məktəbdənkənar işlərin təşkili və s. məsələlərdən söz açıldı.

Konfransın növbəti günü 164 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Arifə Rəsulova Lvov Vilayət Diplomdansonrakı Pedaqoji Təhsil İnstitutunun rəhbərliyinin dəvəti ilə institutun kollektivi qarşısında "Qiymətləndirmənin növləri (beynəlxalq, milli və məktəbdaxili), Məktəbdaxili qiymətləndirmənin növləri: diaqnostik, formativ və summativ. Onların məqsədi və keçirilmə qaydaları" mövzusunda mühazirə oxudu. Mühazirə böyük maraqla qarşılandı.

Qeyd etmək yerinə düşərdi ki, istər Azərbaycan, istərsə də Ukrayna tərəfinin nümayəndələri müasir Azərbaycan və Ukrayna təhsilinin ən aktual məsələlərinə toxunur, problemlərə təhsilin qlobal inkişafı prizmasından yanaşaraq, maraqlı, diqqətçəkən mülahizələr, təkliflər irəli sürürdülər.

## İvan Franko adına Lvov Milli Humanitar Universitetində görüşlər

Martın 24-də Azərbaycan nümayəndə heyətinin bir qrupu İvan Franko adına Lvov Milli Humanitar Universiteti təhsil fakültəsinin qonağı oldu. Görüşdə fakültənin əməkdaşları apardıqları elmi-tədqiqat işlərindən, yaradıcılıq axtarışlarından, qarşıda duran vəzifələrdən, kadr hazırlığı sahəsində gələcək planlarından bəhs etdilər. Elə həmin gün universitetin rektoru, fəlsəfə elmləri doktoru, professor Volodimir Melniklə də görüş keçirildi. Görüşdə bu ali məktəbin rəhbəri azərbaycanlı müəllimlərin, təhsil işçilərinin böyük bir tərkibdə Lvova səfərindən məmnunluğunu ifadə etdi. Universitetin fəaliyyətindən bəhs edən V.Melnik burada azərbaycanlı tələbələrin də təhsil aldıqlarını vurğuladı.

Professor Əjdər Ağayev hər iki görüşdə çıxış edərək Azərbaycanın ali təhsil sistemində həyata keçirilən islahatlardan söz açdı.

## Polşalı təhsil işçiləri ilə görüş

Konfrans çərçivəsində Polşadan gələn təhsil nümayəndələri ilə görüş maraqlı məqamlarla yadda qaldı. Üçtərəfli görüşdə çıxış edən Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayev rəhbərlik etdiyi qurumun prioritetləri barədə məlumat verdi. Söylədi ki, Təhsil Şurası müəllimlərin dünyanın qabaqcıl pedaqoji təcrübəsini öyrənməsini qarşıya məqsəd kimi qoyub. Bununla yanaşı, Azərbaycanın qabaqcıl müəllimlərinin iş təcrübəsinin də Avropada nümayiş olunması vaxtı çatıb. Bu gün bizim elə müəllimlərimiz var ki, onların iş təcrübəsi Avropa üçün də önəmli ola bilər.

Görüşdə iştirak edən Lvov Dövlət Departamenti Elm və Təhsil İdarəsinin şöbə müdiri Svetlana Knışk Ukrayna təhsili ilə Polşa təhsili arasında uzun müddətdir ki, yaradılmış qarşılıqlı əlaqələrdən, təcrübə mübadiləsindən bəhs etdi. Vurğuladı ki, bu münasibətlər orta təhsillə yanaşı, ali, peşə təhsilini də əhatə edir. İstər Polşa, istərsə də Ukrayna təhsilinin öyrənməli tərəfləri çoxdur. Azərbaycanın da təcrübə mübadiləsinə qoşulmasından məmnunuq.

Görüşdə polşalı təhsil işçiləri Azərbaycanın təhsil mühiti ilə maraqlandıqlarını, konfrans iştirakçılarının çıxışlarından maraqlı cəhətləri əxz etdiklərini, əməkdaşlığa hazır olduqlarını dilə gətirdilər.

## Azərbaycan nümayəndə heyəti Lvov məktəblərində

Martın 24-də Azərbaycan nümayəndə heyəti təcrübə mübadiləsi və tanışlıq məqsədilə Lvovun ayrı-ayrı məktəblərində oldu. Lvov şəhər 69 və 82, eləcə də Morşin, Turku və Striy şəhər 10 nömrəli tam orta məktəblərinin hər birində Azərbaycan nümayəndə heyətinin üzvləri yüksək qonaqpərvərliklə qarşılandı. Milli geyimli oğlan və qızlar azərbaycanlı müəllimlərin qarşısına gül - çiçək dəstələri, duz-çörəklə çıxır, öz ehtiramlarını bildirirdilər. Azərbaycanlı müəllimlər məktəblərdə təlim prosesi, pedaqoji kollektiv, şagirdlər, onların əldə etdikləri nailiyyətlər, məktəblərin beynəlxalq əlaqələri, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi imkanları, dərsliklərin tərtibatı və məzmunu, fəal təlim texnologiyalarının tətbiqi imkanları ilə tanış olur, eyni zamanda öz təcrübələrini bölüşür, əldə etdikləri uğurları diqqətə çatdırırdılar. Əlbəttə ki, bütün söhbətlərdə Azərbaycan təhsilindəki yeniliklər, müəllimin özünüinkişafı üçün yaradılan şərait, məktəblərimizin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində Azərbaycan dövləti, Heydər Əliyev Fondu tərəfindən görülən işlər öz əksini tapır, ümumən Azərbaycan təhsilinin yeni inkişaf mərhələsində olduğu aydınlığı ilə görünürdü. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan təhsilində əldə olunan uğurların təqdimatı lvovlu müəllimlərin marağına və heyranlığına səbəb olurdu.

## Lvov Milli Politexnik Universitetində

Azərbaycanlı müəllimləri Lvov Milli Politexnik Universitetində bu ali təhsil ocağının prorektoru, texnika elmləri doktoru, professor Yuri Mixayloviç Paşkeviç qarşıladı. Universitetin böyük akt zalında keçirilən görüşdə öncə professor Yuri Mixayloviç Lvov Milli Politexnik Universitetinin tarixindən, tədris prosesindən, kadr potensialından, maddi-texniki bazasından, tədris, təcrübə prosesinə novator texnologiyaların tətbiqi imkanlarından, beynəlxalq əlaqələrindən, kadr hazırlığının müasir prioritetlərindən, təhsil ocağının Ukrayna təhsilindəki mövqeyindən, kadrlara olan tələbatdan bəhs etdi. Görüşdə Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin də çıxışı maraqla qarşılandı. O, rəhbərlik etdiyi qurumun yaranma tarixi, Azərbaycan təhsilindəki mövqeyindən, ölkəmizin təhsil sistemində qeyri-hökumət təhsil təşkilatlarının iştirakından bəhs etdi.

Ukrayna Azərbaycanlıları Konqresi Lvov Vilayət Diaspor Təşkilatının sədr müavini Vilayət Nuhuyev azərbaycanlıların Ukraynanın elm, təhsil və ictimai həyatındakı rolundan söz açdı. Bunun Ukrayna-Azərbaycan əlaqələrinin inkişafında müstəsna rol oynadığını dilə gətirdi.

## "Azərbaycan multikulturalizmi: nəzəriyyə və təcrübə məsələləri"

Martın 25-də Azərbaycan nümayəndə heyəti Lvovdakı Azərbaycan diaspor təşkilatının üzvləri və Lvovun təhsil ictimaiyyəti nümayəndələrinin iştirakı ilə "Azərbaycan multikulturalizmi: nəzəriyyə və təcrübə məsələləri" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda Əjdər Ağayev həmin mövzuda məruzə etdi. Sonra mövzu ətrafında çıxışlar oldu.

Həmin gün Azərbaycan Təhsil Şurasının Lvov Dövlət Departamenti Elm və Təhsil İdarəsi ilə birgə keçirdiyi "Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi" mövzusunda elmi-təcrübi konfransa yekun vuruldu. Konfransın sonunda Azərbaycan və Ukrayna tərəfindən iştirakçılara sertifikat təqdim olundu. İdarənin şöbə müdiri xanım Svetlana Knışk Ə.Ağayevə və nümayəndə heyətinin bir neçə üzvünə Ukrayna və Azərbaycan arasında təhsil əlaqələrinin genişləndirilməsi sahəsindəki xidmətlərinə görə Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsinin fəxri fərmanını təqdim etdi.

Sonda çıxış edən Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayev konfransın yüksək səviyyədə təşkilinə görə Lvov Dövlət Departamenti Elm və Təhsil İdarəsinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Yekunda belə konfransın Azərbaycanda və Polşada da keçirilməsi nəzərdə tutuldu.

**Azərbaycan Təhsil Şurasının Mətbuat və ictimaiyyətlə əlaqə mərkəzi**